# Vətən müharibəsi şəhidinin doğum günü qeyd edilib

**Şirvan şəhərindəki Şəhidlər xiyabanında Vətən müharibəsi şəhidi Elnur Qalib oğlu Qarayevin anım günü qeyd olunub.**

Tədbir iştirakçıları öncə xiyabandakı şəhidlərin məzarlarını ziyarət edərək önünə gül dəstələri düzüb, xatirələrini ehtiramla yad ediblər. Sonra çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov şəhidin doğmalarına səbir diləyib, Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin döyüş zamanı göstərdikləri şücaət və vətənpərvərlikdən söz açıb. 44 günlük Vətən müharibəsində vahid xalq, güclü dövlət və qətiyyətli Ali Baş Komandanın birgə mübarizəsinin qələbəni şərtləndirən əsas amil olduğunu qeyd edib. Ölkəmizdə şəhid və qazi ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan bəhs edən ŞİH-in başçısı Şirvan şəhərində də hər bir şəhid ailəsinin və müharibə iştirakçısının problemlərinə həssaslıqla yanaşıldığını diqqətə çatdırıb.



Digər çıxış edənlər də tarixi Zəfərimizdən, Vətən müharibəsində əsgər və zabitlərimizin misilsiz şücaətlərindən bəhs edərək haqq savaşımızda şəhidlik zirvəsinə ucalan igid Vətən övladlarının xatirəsinin daim xalqımızın qəlbində yaşayacağını vurğulayıblar.

Şəhid Elnur Qarayev 1996-cı ilin noyabrında Şirvan şəhərində anadan olub. Şəhər 1 nömrəli tam orta məktəbi bitirib. Vətən müharibəsi zamanı Xocavənd v Zəngilan istiqamətlərində gedən döyü lərdə iştirak edən E.Qarayev həmin d yüşlərin birində şəhid olub. Ölümünd sonra 3-cü dərəcəli "Vətənə xidmətə g rə" ordeni, "Vətən uğrunda" və "Xoc vəndin azad olunmasına görə" medalla ilə təltif edilib.

***Seyran CAVADO***

***"Azərbaycan***

Azərbaycan. - 2024.- 20 noyabr (№ 255).- S.20.